| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **30.01.2014** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **27** |
| **ADI** | **Məhsulun tədqiqi (sınağı) barədə qərarın nümunəvi formasının təsdiq edilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2014, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 75)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **01.03.2014** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **110.000.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **31.01.2014** |

**Məhsulun tədqiqi (sınağı) barədə qərarın nümunəvi formasının təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Məhsulun tədqiqi (sınağı) barədə qərarın nümunəvi forması təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar 2014-cü il 1 mart tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 30 yanvar 2014-cü il
27

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 yanvar tarixli 27 nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

______________________________________________
(yoxlayıcı orqanın adı, ünvanı)

**Məhsulun tədqiqi (sınağı) barədə**
**Qərar ____**

"______" _______________ 20______ il (qəbul edilmə tarixi)

"____________________________________________" (qəbul edilmə vaxtı (saat, dəqiqə)

Məhsulun tədqiqi (sınağı) üçün məhsul nümunələrini götürmək səlahiyyəti olan yoxlayıcının vəzifəsi, soyadı, adı və atasının adı: _________________________
______________________________________________

Məhsulunun tədqiqi (sınağı) aparılacaq sahibkarın (onun təsərrüfat obyektinin) adı və yerləşdiyi ünvan: ________________________________________
______________________________________________

Məhsulun tədqiqini (sınağını) əsaslandıran səbəblər: ______________________
______________________________________________

Tədqiqi (sınağı) aparılacaq məhsulun adı: __________________________________
______________________________________________

Tədqiqi (sınağı) aparılacaq məhsulu dəqiq müəyyən etmək imkanı verən məlumatlar (istehsalçı, model, istehsal tarixi, partiya və s.): ________________
______________________________________________

Məhsulun götürülməli nümunələrinin sayı:
Götürülmüş məhsul nümunələrinin uyğunluğunun yoxlanacağı parametrlər:______________________
______________________________________________

Məhsulun tədqiqini (sınağını) aparacaq laboratoriyanın və ya digər təşkilatın adı: _________________
______________________________________________
______________________________________________

**M.Y.**

_______________ (imza)

_______________________________________________ (yoxlayıcı orqanın rəhbərinin və ya onu əvəz edən şəxsin soyadı, adı, atasının adı)